

# İNKLÜZİV TƏHSİL

(Məlumat kitabçası)



Avropa İttifaqı

RİİB Regional İnkişaf İctimai Birliyi


Tel: (+994 12) 505 01 50
Email: office@ie-rt.az
“Regional İnkişaf” İctimai Birliyi
Bakı şəhəri, Mikayıl Müşfiq küçəsi 2H



Bakı 2018
www.riib.az

# İNKLÜZİV TƏHSİL

*(Məlumat kitabçası)*

*Məlumat kitabçası Avropa İttifaqının maliyyə dəstəyi ilə "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması" layihəsi çərçivəsində "Regional İnkişaf" İctimai Birliyi tərəfindən hazırlanıb.*

*"Regional İnkişaf" İctimai Birliyi bu layihəni "Yerli İdarəetməyə Yardım" İctimai Birliyi və "Sosial Hüquqların Araşdırılması" İctimai Birliyi ilə birlikdə icra edir.*

Bakı-2018

Tərtib etdi: **Mayis Əliyev**
"Sosial Hüquqların Araşdırılması"
İctimai Birliyinin sədri

Rəy bildirdi: **Leyla Tağıyeva**
"Müəllimlərin inklüziv təhsil sahəsində
bacarıqlarının artırılması" layihəsinin rəhbəri

**Fərid Süleymanov**
"Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının
artırılması" layihəsinin inklüziv təhsil üzrə mütəxəssisi

Bu kitabça Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanmışdır. Kitabçanın məzmununa görə "Regional İnkişaf" İctimai Birliyi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul edilə bilməz.

# MÜNDƏRİCAT

Giriş ........ 4

İnklüziv təhsil anlayışı, tarixi inkişaf mərhələləri, prinsipləri və xüsusiyyətləri ........ 6

Azərbaycanda əlilliyi olan şəxslərin təhsili sahəsində mövcud vəziyyət ........ 18

Azərbaycanda inklüziv təhsilin qanunvericilik əsasları ........ 21

İnklüziv təhsil sahəsində dövlət siyasəti ........ 27

"2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə" Dövlət Proqramı ........ 29

Beynəlxalq təcrübə ........ 34

# GİRİŞ

Məlumat kitabçası Avropa İttifaqının maliyyə dəstəyi ilə "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması" layihəsi çərçivəsində Heydər Əliyev Fondunun təsis etdiyi "Regional İnkişaf" İctimai Birliyi tərəfindən nəşr olunub. Layihənin əsas məqsədi Bakı şəhəri, Quba, Şəki, Cəlilabad, Ağcabədi və Şamaxı rayonlarında inklüziv təhsil üçün müəllimlərin tədris imkanlarının və idarəetmənin, habelə pedaqoji resursların və siyasətin təkmilləşdirilməsindən ibarətdir. Layihənin xüsusi məqsədlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Pedaqoji kadr hazırlığının təhsil proqramı, dərsliklər və tədris materiallarını təkmilləşdirmək və modernləşdirmək;

2. İbtidai sinif müəllimlərinin, əlilliyi olan uşaqlara dəstək olan digər mütəxəssislərin bilik və bacarıqlarını təkmilləşdirmək;

3. İbtidai sinif müəllimləri və digər mütəxəssisləri resurslarla təmin etmək;

4. İnklüziv təhsil sistemi üçün lazımi şərait yaratmaq, normativ baza və siyasəti təkmilləşdirmək.

Məlumdur ki, təhsil sosial proseslərə təsir göstərən mühüm faktor olmaqla, şəxsiyyəti şərtləndirən keyfiyyət və dəyərlərin formalaşmasına xidmət edir. Demokratik təhsil cəmiyyətin bütün üzvlərinin - istər sağlam, istərsə də əlilliyi olan insanların bərabər təhsil alma hüquqlarını təmin edir. Bu, cəmiyyətdə sosial bərabərliyin qorunmasına şərait yaratmış olar. Belə bir imkanı isə yalnız inklüziv təhsil yarada bilər. ***İnklüziv təhsil dedikdə, xüsusi təhsil ehtiyacları və digər səbəblərdən yaranan maneələrə baxmayaraq, bütün uşaqların onlara yaxın ərazidə yerləşən ümumtəhsil məktəblərində, yaş kateqoriyasına uyğun olan siniflərdə keyfiyyətli***

***təhsilə cəlb edilməsi və təlimdə nailiyyət əldə etmələri üçün onlara lazımi dəstəyin göstərilməsi nəzərdə tutulur.*** İnklüziv təhsil xüsusi təhsil ehtiyacı olan uşaqların öz potensiallarına nail olma imkanını dəstəkləyir, xüsusi təhsil ehtiyacı olan uşaqlarda özünəinamı artırır və digər tipik inkişaf edən uşaqlarla bərabərhüquqlu edir.

Müasir dövrümüz xüsusi təhsil ehtiyacı olan şəxslərin və onların qanuni himayəçilərinin təhsil ehtiyacları barədə ictimai məlumatlılığının artırılmasını, onların Azərbaycan Respublikasının təhsil qanunvericiliyi və beynəlxalq konvensiyalarda əks olunmuş təhsil hüquqları barədə təlimatlandırmağı zəruri edir.

Kitabçada inklüziv təhsil anlayışı, inkişaf mərhələləri, prinsipləri, xüsusiyyətləri, Azərbaycanda əlilliyi olan şəxslərin təhsili sahəsində mövcud vəziyyət, inklüziv təhsilin qanunvericilik əsasları, "2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə" Dövlət Proqramı, eləcə də beynəlxalq təcrübə haqqında geniş məlumatlar əks olunmuşdur.

Kitabça əlilliyi olan uşaqların qanuni himayəçiləri, təhsil işçiləri, əlil təşkilatları, valideynlər və müvafiq sahə ilə əlaqəli olan digər peşə sahibləri üçün nəzərdə tutulur.

# İnklüziv təhsil anlayışı, tarixi inkişaf mərhələləri, prinsipləri və xüsusiyyətləri

## İnklüziv təhsil anlayışı

Məlumdur ki, cəmiyyətin ən həssas və daha çox sosial müdafiəyə ehtiyacı olan təbəqəsi əlilliyi olan şəxslərdir. Onların hüquqlarının təmin edilməsi qarşıda duran vacib məsələlərdəndir. BMT-nin statistikasına əsasən, dünya əhalisinin 15%-ini, Azərbaycan Respublikası əhalisinin isə 6%-ini əlilliyi olan şəxslər təşkil edir. Uzun müddət cəmiyyətdə əlilliyi olan şəxslərə qarşı münasibət tibbi yanaşma modeli baxımından, yəni "cəmiyyətə yararlı olmayan üzv kimi" olmuşdur ki, bu da onların cəmiyyətə hüquq və imkan bərabərliyi prinsipi əsasında inteqrasiyasını məhdudlaşdırmışdır. Eyni zamanda, cəmiyyətdə əlilliyi olan şəxslərə qarşı belə bir münasibət formalaşmışdır ki, onlar evdə oturmalı və ictimai yerlərdə görünməməlidirlər. Çünki onlar müvafiq iş yerlərində və təhsil müəssisələrində digər şəxslərlə birgə işləyə və ya təhsil ala bilməzlər. Bu yanaşma isə cəmiyyətdə onlara qarşı xeyriyyəçi yanaşmanın deyil, mənəvi modelin formalaşdırılmasını zəruri edir. Bütövlükdə əlilliyi olan şəxsləri cəmiyyətin tam hüquqlu üzvü kimi qəbul edən və onların cəmiyyətə tam

*İnklüziv təhsil dedikdə, xüsusi təhsil ehtiyacları və digər səbəblərdən yaranan maneələrə baxmayaraq, bütün uşaqların onlara yaxın ərazidə yerləşən ümumtəhsil məktəblərində, yaş kateqoriyasına uyğun olan siniflərdə keyfiyyətli təhsilə cəlb edilməsi və təlimdə nailiyyət əldə etmələri üçün onlara lazımi dəstəyin göstərilməsi nəzərdə tutulur.*

və səmərəli şəkildə inteqrasiyasını özündə əks etdirən sosial yanaşma modelinin formalaşdırılması və mövcud qanunvericiliyə sirayət etdirilməsi müasir dövrümüzün ən aktual məsələlərindən biridir. Sosial model ideyası Azərbaycan dövlətinin 2 oktyabr 2008-ci il tarixində ratifikasiya etdiyi BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" 13 dekabr 2006-cı il tarixli Konvensiyasının və respublikamızda bu sahədə həyata keçirilən sosial islahatların mahiyyətindən irəli gəlir. Konvensiyanın qəbul edilməsi göstərir ki, həm dövlət, həm əlilliyi olan şəxslərin özləri, həm də cəmiyyətin bütün üzvləri bu məsələyə həssas yanaşmalı və bütün yanaşmalar insan hüquqlarının tam şəkildə reallaşdırılmasına yönəlməlidir. Azərbaycan həmin Konvensiyaya qoşulmaqla öz üzərinə əlilliyi olan şəxslərin hüquqlarının təmin edilməsi, bu hüquqlara hörmət və təşviq edilməsi istiqamətində mühüm öhdəliklər götürmüş və əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi məsələsi milli dövlət siyasətinin ən mühüm prioritetlərindən birinə çevrilmişdir. Konvensiyaya əsasən, əlilliyi olan şəxslər cəmiyyətdə maksimum müstəqillik əldə etməli, onların tam fiziki, əqli, sosial və peşə vərdişlərinə malik olmaları üçün hüquqi, iqtisadi və sosial şəraitin yaradılması təmin edilməli və bütövlükdə sərbəst şəkildə cəmiyyətdə fəaliyyət göstərmələri üçün maneələr aradan qaldırılmalıdır. Bunun üçün elmi cəhətdən əsaslandırılmış dövlət proqramları, strategiyalar hazırlanmalı və həyata keçirilməlidir. Əlilliyi olan şəxslərlə bağlı tədbirlərin səmərəli surətdə həyata keçirilməsində, onların hüquqlarının dolğun şəkildə müdafiə olunmasında və cəmiyyət həyatının bütün sahələrinə tam inteqrasiya edilməsində ən mühüm məsələlərdən birini əlilliyi olan şəxslərin təhsil hüquqlarının real şəkildə təmin edilməsi və bütövlükdə inklüziv təhsilin həyata keçirilməsi təşkil edir.

İnklüziv təhsil istər inkişaf etmiş, istərsə də inkişaf etməkdə olan ölkələrdə həyata keçirilən təhsil islahatlarındakı proseslərin



ayrılmaz hissəsinə çevrilən və daim inkişafda olan bir konsepsiya olmaqla insan hüquqları prinsipinə əsaslanır. İnsan Hüquqları Konvensiyasına görə, dövlətlər elə bir təhsil sistemi qurmalıdır ki, təhsilalma hüququ hər bir uşağın insan hüququ olaraq qorunsun və təmin edilsin. Ümumtəhsil sistemi bütün şəxsləri əhatə etməli, bütün uşaqların bərabər imkanlara malik olmasını təmin etməli və hər birinin fərdi nailiyyətlərinə dəstək verməlidir. Təhsildə inklüziv yanaşma bu məqsədlərə xidmət edir və sistem şəklində təmin olunan şərait və təlim vəsaitləri müxtəlif səviyyəli bilik və bacarıqlara malik olan uşaqlar üçün əlverişli olmağı vurğulayır. Ümumtəhsil sistemində inklüzivlik anlayışı müəyyən qrup uşaqları sadəcə ümumtəhsil məktəblərinə daxil etmək deyil, məhz sistemin özünün geniş spektrli qabiliyyətlərə malik olan və xüsusi təhsil ehtiyacları olan uşaqları əhatə etmək imkanlarının yaradılması deməkdir. Bu da qanunvericiliyi, maliyyə təminatını, məktəblərdə xüsusi xidmətlərin və zəruri infrastrukturun olmasını, dərslərin planlaşdırılmasını və aparılmasını, təlim metodları və strategiyalarını nəzərdə tutur. Bu gün dünyanın bir çox ölkələrinin təhsil sistemlərinin inkişafı məhz inklüziv yanaşma ilə xarakterizə olunur. Son zamanlar bu yanaşmaya üstünlük verilir və ciddi diqqət yetirilməyə başlanılır.

Pedaqogikada inklüziv yanaşmaların tətbiqi əsas demokratik prinsip və dəyərlərə tam cavab verməklə, əlilliyi olan uşaqların tipik yaşıdlarının təlim aldıqları şəraitdə təhsilinə tam və fəal şəkildə cəlb olunması kimi təyin olunur. İnklüziya əlilliyi olan uşaqların ümumtəhsil məktəblərinə sadəcə fiziki surətdə daxil olması deyil. İnklüziv təhsil (inklüziv təlim) sinif mühitində hər bir uşağın başqaları ilə birlikdə tədris prosesində iştirak etmə

hüququnu nəzərdə tutur. İrqi, cinsi fərqlər, eləcə də xüsusi fərqlər və müxtəlif qabiliyyətlər bu hüquqa təsir göstərmir. Öz qabiliyyət və ehtiyaclarından asılı olmayaraq, uşaqların hamısı sinfin tamhüquqlu üzvü sayılır. İnklüziv təhsilin bu konsepsiyası "bütün uşaqlar dəyərli və cəmiyyətin fəal üzvləridir" kimi əsas demokratik ideyalardan birini əks etdirir. Belə ki, uşaqlar sağlam və əlilliyi olanlara bölünmür, öz fərdi xüsusiyyətləri, ehtiyacları və istedadları olan ayrı-ayrı şəxsiyyətlər kimi nəzərdən keçirilir və daima təlim prosesində dəstək alırlar.

Xüsusi təhsil ehtiyacları termini və ümumiyyətlə, "təhsildə ehtiyaclar" konsepsiyası ilk dəfə 1981-ci ildə İngiltərədə işlənmişdir. Bu konsepsiyadan əvvəl uşaqların tibbi göstərişləri əsas götürülür və onların inkişaf səviyyəsini təsvir etmək üçün tibbi terminlərdən istifadə edilirdi. Uşağın harada təhsil alma məsələsi ön plana çıxanda onun fiziki və ya əqli qüsurlarından və ya əlillik kateqoriyasından asılı olaraq qərar qəbul edilirdi. Təhsildə əlillik

| **Tibbi model** | **Sosial model** |
|---|---|
| Uşağın qüsurlu olması | Hər bir uşağın dəyərli olması və olduğu kimi qəbul edilməsi |
| Diaqnoz | Uşağın özü və ətrafı tərəfindən müəyyənləşdirilməmiş güclü xüsusiyyətləri və ehtiyacları |
| Damğalama | Maneələrin dəf edilməsi və problemlərin həlli |
| Pozuntunun diqqət mərkəzində olması | Nəticəyönümlü müəssisələrin təşkili |
| Ehtiyacların qiymətləndirilməsi; monitorinq; pozuntuların terapiyası | Əlavə resurslardan istifadə vasitəsilə standart xidmətlərin əlçatanlığı |
| Seqreqasiya: xüsusi xidmətlərin təmin edilməsi | Valideyn və mütəxəssislərin hazırlanması və maarifləndirilməsi |
| Fərdi ehtiyaclara əhəmiyyət verilməməsi | Uşaqlararası ünsiyyətin "yetişdirilməsi" |
| Seqreqasiyanın başqa bir təzahürü: normal vəziyyətin qismən bərpası | Müxtəlifliyin məqbul hesab edilməsi: Hər bir uşağa inklüziv yanaşma dəstəklənir |
| Cəmiyyət dəyişməz olaraq qalır | Cəmiyyət üzvləri birgə inkişaf edir |

kateqoriyalarının istifadəsindən imtina etmək üçün xüsusi təhsil ehtiyacları konsepsiyası işlənib hazırlanmışdır. "Xüsusi təhsil ehtiyacları" termini tədris prosesində üzə çıxa biləcək çətinlikləri şagirdin spesifik sağlamlıq problemi ilə əlaqələndirmir.

İnklüziv təhsilin inkişafı dünyanın bir çox ölkələrinin təhsil siyasətinin prioritetlərindəndir. Aparılan islahatlar təhsilin beynəlxalq prinsip və standartları ilə uyğunlaşdırılması məqsədini daşıyır. Bu prinsiplərdən biri də təhsilin humanistləşdirilməsi və insan hüquqları standartları ilə uyğunlaşdırılmasıdır. BMT-nin İnsan Hüquqları Konvensiyasına görə, bütün uşaqlar üçün bərabər təhsil almaq imkanlarının yaradılması və əlilliyi olan uşaqların cəmiyyətə inteqrasiyası dövlətlərin üzərinə düşür. Təhsilin məqsədlərindən biri də əlilliyi olan insanların cəmiyyətə inteqrasiyasını stimullaşdırmaq və onu reallığa çevirməkdir. İnklüziv təhsilin əsas prinsipi inklüziv təhsil vasitəsilə inklüziv cəmiyyətin formalaşmasını təmin etməkdir.

Əlilliyi olan uşaqların ümumtəhsil məktəblərinə uğurlu inteqrasiyası məktəb mühitində və bütövlükdə təhsil sistemində mühüm dəyişikliklər tələb edir. Həmin dəyişikliklər məktəblərdə xüsusi şəraitin yaradılmasını, əlilliyi olan uşaqlar üçün təlim proqramlarının və materiallarının işlənib hazırlanmasını, təlimin metod və strategiyalarının differensiallaşdırılmasını və hətta qiymətləndirmə standartlarının dəyişməsini tələb edir.

XX əsrin 90-cı illərindən etibarən inklüziv təhsilin məqsəd və mahiyyəti əhəmiyyətli şəkildə dəyişdi. İlk növbədə xüsusi tələbləri nəzərə alan inteqrativ modellərin çoxsaylı müxtəlif proqnozlara, tələblərə, şagirdlərin tədris üsulu və kontekstinə toxunan inklüziv strategiyalarla təkmilləşdirilmə zərurəti meydana çıxdı. Təlimdə və tədris planlarında differensiallaşdırmanın müasir təhsilin adətən vacib prinsipləri kimi qəbul edilməsinə baxmayaraq, milli təhsil sistemləri qarşısında ümumi

tədris planları, tələbləri və yanaşmalarını təbliğ edən məsələlər qoyuldu. İnklüziv təhsil şagirdin sistemə deyil, sistemin şagirdə uyğunlaşmasını tələb edir. İnklüziv təhsil şagirdlərin həyatının zəruri tələblərinə və maraqlarına dəqiq uyğunlaşma məqsədi ilə müxtəlif strategiyaların geniş diapazonda istifadəsini nəzərdə tutur.

Bütün şagirdlərin keyfiyyətli təhsilə yiyələnməsi üçün imkan və şəraitin yaradılması zəruridir və bu, inklüziv təhsil konsepsiyasının əsasını təşkil edir. "Hər kəs üçün təhsil" sadəcə təhsilə yiyələnməni nəzərdə tutmur. O, daha çox əlverişlilik və keyfiyyəti nəzərdə tutur ki, bu da öz əksini YUNESKO-nun ""Hər kəs üçün təhsil" məqsədinə keyfiyyətin yüksəldilməsini həyata keçirmədən nail olmaq mümkün deyil" bəyanatında tapıb. İnklüziv təhsil "Hər kəs üçün təhsil" məqsədinə nail olmaq üçün əsas prinsip və strategiyalardan biri hesab olunur. Bunun üçün aşağıdakı bəzi fəaliyyətlərin zəruriliyi ön plana çəkilir:

- Qaydalara riayət edilməsi və bütün şagirdlərin tədrisin yüksək pillələrinədək keyfiyyətli təhsil almaq hüququna malik olması;

- Dövlətin əvəzolunmaz missiyası və məsuliyyəti, həmçinin onun lazımi maliyyələşdirmə, şərait və imkanları təmin etmə vəzifəsi əsasında təhsilin bir ictimai rifah kimi təbliğ edilməsi;

- Keyfiyyətli təhsilə yiyələnmək hüququnun təmin edilməsi. Bunun üçün stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi;

- Şagirdlərin və onların təhsil almasında maraqlı olanların qanuni tələblərinin həyata keçirilməsi.

İnklüziv təhsil strategiyası pedaqoji nöqteyi-nəzərdən uşaqların fasiləsiz təhsil almaları üçün real imkanlar yaratmaq şərtilə, onların hər birinin fərdi xüsusiyyətləri nəzərə alınmaqla təhsillə əhatə olunmasını zəruri hesab edir. Bu strategiya müəllimlər və şagirdlər arasında olan qarşılıqlı əlaqələrə, şəfqətə və yaxınlığa istinadən cəmiyyətdə hər bir şəxsin bərabərhüquqlu

təhsil alma imkanlarını təmin edir. İnklüziv təhsil kollektiv düşünmə, hər bir şagirdin təhsil potensialının hesaba alınmasını nəzərdə tutan sosial ədalətli fəaliyyəti, özündə prosesləri, nəticələri və fərqləndirilmiş aspektləri birləşdirən, tövsiyə olunmuş təlim normalarının və tədris planının ümumi konsepsiyasının nəzəri əsaslarını cəmləşdirməklə həyata keçirilə bilər.

## İnklüziv təhsilin tarixi inkişaf mərhələləri

Dünyada əlilliyi olan uşaqların təhsilinin inkişaf tarixini təxmini olaraq üç dövrə bölmək olar. Birinci dövr XX əsrin əvvəllərindən 1960-cı illərədək olan dövrü əhatə edən "tibbi model" dövrü kimi tarixə daxil edilmişdir. Həmin dövrdə "tibbi model" tətbiq edilir ki, bu da seqreqasiya (məcburi ayırma, təcridetmə siyasəti, hüquqların məhdudlaşdırılması) adlandırılır. "Tibbi model" əsasında əlilliyi olan uşaqlar üçün ayrıca təhsil müəssisələri yaradılır, həmin müəssisələrdə uşaqlara müntəzəm tibbi xidmətlər göstərilir və uzunmüddətli müalicə həyata keçirilirdi. Bu isə inkişaf və sosial adaptasiya amillərini müəyyən mənada arxa planda qoyurdu. Azərbaycanda da məhz bu mərhələdə əlilliyi olan uşaqlar üçün kütləvi şəkildə internat tipli təhsil müəssisələri, uşaq evləri və xüsusi məktəblər təşkil edilmişdir.

İkinci dövr 60-80-ci illəri əhatə edir və "normallaşdırma modeli", yaxud “inteqrasiya” dövrü adlandırılır. İlk dəfə 1970-ci ildə Skandinaviyada yaranan "normallaşdırma modeli" sonradan ABŞ və Kanadada daha da inkişaf etdirilir və onun əsasını aşağıdakı amillər təşkil edirdi: əlilliyi olan uşaqlar bütün uşaq-



larla eyni tələbatlara malikdirlər; onlar maksimum normal həyata yaxın bir mühitdə yaşamalıdırlar; onlar üçün ən yaxşı mühit öz evləridir və hakimiyyət orqanları səy göstərməlidirlər ki, həmin uşaqlar evdə tərbiyə olunsunlar; bütün uşaqlar təhsil ala bilərlər, buna görə də onların xəstəliyinin nə dərəcədə ağır olmasından asılı olmayaraq, təhsil almaları üçün şərait yaratmaq lazımdır.

Bu mərhələdə bir sıra ölkələrdə, o cümlədən ABŞ, Böyük Britaniya, İsveçrə və İtaliyada bütün təhsil sistemi yenidən formalaşdırılır, daha humanist modellərə üstünlük verilir, internat məktəbləri və uşaq evləri ləğv edilir, uşaqlar övladlığa, yaxud qəyyum ailələrə verilir. Azərbaycanda bu dövrdə irəliləyiş ondan ibarət olur ki, bir sıra kütləvi təhsil müəssisələrində - uşaq bağçalarında və ümumtəhsil məktəblərində sağlamlıq imkanları məhdud uşaqların təhsil aldığı korreksiya (dayaq) qrupları və sinifləri yaradılır, yəni təhsil müəssisəsi səviyyəsində inteqrasiya həyata keçirilir.

Üçüncü dövr ötən əsrin 80-ci illərindən indiyədək olan dövrü əhatə edir. Bu dövr "sosial model"in tətbiq olunması ilə müşayiət olunur və inklüzivlik adlanır. İnklüzivlik isə sağlamlıq imkanlarından, bacarıqlarından, ailə vəziyyətindən, irqindən, dinindən asılı olmayaraq bütün şəxslərin təhsil prosesində və həyatda bərabərhüquqlu iştirakıdır.

İnklüziv təhsil sahəsində formalaşmış olan "sosial model" BMT-nin insan inkişafı konsepsiyasına da uyğundur. Bu konsepsiyaya görə, hər bir şəxsə onun fərdi qabiliyyətlərini, potensial imkanlarını davamlı şəkildə inkişaf etdirmək üçün iqtisadi, sosial, mədəni, siyasi sahələrdə əlverişli mühit yaradılmalıdır. Həmin konsepsiya nəzərdə tutur ki, insanların layiqli həyat sürməsi, sağlam olması, təhsil və bilikdən bəhrələnməsi davamlı olmalı, cəmiyyətin inkişaf prosesində həm çağdaş, həm də gələcək nəsillərin layiqli həyat sürmək imkanları təmin edilməli, hər bir fərd üçün



bərabər təhsil alma və inkişaf imkanları yaradılmalıdır.

İnklüziv təhsil əlilliyi olan uşaqları cəmiyyətdən və yaşıdlarından təcrid olunmaqdan xilas edir, onların həyata inteqrasiyasına, inkişafına və hüquqlarının təmin olunmasına kömək edir, sağlam uşaqlarda isə öz həmyaşıdlarına qarşı mərhəmət, qayğı hisslərinin formalaşmasına səbəb olur.

## İnklüziv təhsilin əsas prinsip və xüsusiyyətləri

İnklüziv təhsil səkkiz prinsipə əsaslanır:

*1. İnsanın dəyəri onun bacarıqları və nailiyyətləri ilə ölçülmür.*

Bu prinsip mahiyyət etibarilə Ümumdünya insan hüquqları bəyannaməsinə əsaslanır. Belə ki, bəyannamənin elə ilk bəndində bütün insanlar ləyaqət və hüquqlarına görə bərabər doğulurlar və əlavə edilir ki, insanlar bir-birilərinə münasibətdə qardaşlıq ruhunda davranmalıdırlar. Başqa sözlə, insanın fiziki və ya intellektual inkişaf səviyyəsi, yaxud malik olduğu potensial ona dəyər qazandırmır. İnsanı dəyərli edən ən ümdə amil onun bütün canlı və cansız aləmin fövqündə duran insan kimi dünyaya gəlməsidir. Bacarıq və nailiyyətlərə görə insana qiymət vermək təfəkkürü qədim və orta əsr insanına xas olan bir xüsusiyyətdir. Bu düşüncə tərzi insanlar və icmalar arasında qeyri-bərabərlik və ziddiyyətli münasibət yaradır. Lakin elmi, mədəni, siyasi və iqtisadi sferalarda yüksək inkişaf səviyyəsi yaşayan, müasir sivilizasiyada isə bioloji varlıq kimi insan yüksək dəyərə malikdir.

*2. Hər bir insan hiss etmək və düşünmək qabiliyyətinə malikdir.*

İnklüziv təhsil prinsipləri eyni zamanda hər bir insanın hiss etmək və düşünmək qabiliyyətinə malik olduğunu vurğulayır. Yəni əlilliyin olub-olmamasından asılı olmayaraq hər bir insan özünəməxsus tərzdə düşünə və hiss edə bilir ki, bu amillər də insanı bənzərsiz subyektə çevirir. Subyektiv fikirlərə və ümumbəşəri hisslərə hörmət etmək inklüziv və tolerant cəmiyyətin ali dəyərlərindəndir.

*3. Hər bir insan ünsiyyət hüququna malikdir.*

İnklüziv təhsilin ünsiyyət hüququnu bir prinsip kimi nəzərə alması insan üçün həyati əhəmiyyət kəsb edən mənəvi-psixoloji ehtiyaca əsaslanır. Sosial varlıq kimi insan digərləri ilə ünsiyyətə girmək və sosiallaşmaqla şəxsiyyət kimi formalaşır. Əlilliyi olan insanların cəmiyyətə adaptasiyası prosesində ünsiyyət hüququnun təmin edilməsi ciddi əhəmiyyət kəsb edir.

*4. Bütün insanların bir-birinə ehtiyacı vardır.*

Bəzən bu həqiqəti unuduruq ki, sadəcə əlilliyi olan insanlar deyil, bütün insanların bir-birinə ehtiyacı var və bütün insanlar müəyyən mənada başqalarından asılıdır. Biz bioloji və sosial varlıq kimi ehtiyaclarımızın böyük bir qismini başqalarının köməyi ilə təmin edirik. Lakin əlilliyi olan insanların ehtiyacları nisbətən qabarıq nəzərə çarpdığından elə təsəvvür formalaşır ki, sadəcə onların xüsusi qayğıya ehtiyacı var. Bu xüsus unudulmamalıdır ki, hər bir insan bənzərsizdir və özünəməxsus ehtiyacları vardır.

*5. Əsl təhsil yalnız real qarşılıqlı münasibətlər zəminində həyata keçirilə bilər.*

Təhsilin qarşılıqlı münasibətlər zəminində baş tutmasını bir prinsip kimi əsas götürən inklüziv təhsil məntiqli olaraq sosial öyrənmə nəzəriyyəsinə və davranış psixologiyasına istinad edir. Çünki insan sosial fenomen kimi nümunəvi davranışları təqlid etməklə şəxsiyyət kimi formalaşır. Qeyd edək ki, təhsildə müasir yanaşma hesab edilən interakiv təlim də şagirdlərin birgə

fəaliyyət və qarşılıqlı münasibətlər əsasında daha yaxşı öyrənməsini təmin edir.

*6. Bütün insanlar öz həmyaşıdlarının köməyinə və dostluğuna ehtiyac duyurlar.*

Yuxarıda qeyd edildiyi kimi, sosial ünsiyyət ən təbii insani ehtiyac kimi özünü büruzə verir. Lakin inklüziv təhsil kontekstində bunu da nəzərə almaq lazımdır ki, insan öz yaş kateqoriyasından olan digər insanlarla daha səlis və psixoloji maneə olmadan ünsiyyət qurur, dostluq edir və qarşılıqlı surətdə yardımlaşır. Məhz bu nöqteyi-nəzərdən inklüziv təhsil bütün uşaqlar üçün faydalı bir konsepsiyadır.

*7. Bütün təhsilalanların nailiyyətləri onların nəyi etməyi bacarmaları ilə ölçülür.*

Qiymətləndirmə məsələsinə gəldikdə isə inklüziv təhsil yanaşması uşaqların (ələlxüsus əlilliyi olan uşaqların) bilik və bacarıqlarını təyin olunmuş normativlərə əsasən deyil, uşaqların əvvəlki bilik və bacarıqlarına əsasən qiymətləndirməyi zəruri hesab edib. Yəni əlilliyi olan uşaqların bacarıqları şərti şkala əsasında deyil, real olaraq əldə etdikləri inkişaf əsasında qiymətləndirilməlidir.

*8. Rəngarənglik insanın bütün cəhətlərini inkişaf etdirir.*

İnklüziv təhsilin istinad etdiyi universal dəyərlər yalnız əlilliyi olan insanların deyil, bütün təhsilalanların maraqlarını təmin edir. Bu universal dəyərlər onu deməyə əsas verir ki, inklüziv təhsil hamı üçün təhsil anlayışını ehtiva edir. İnklüziv təhsil məktəblərdə fərqli uşaqların birgə təhsil almasını təmin etməklə onların çoxşaxəli və dolğun inkişafı üçün rəngarəng mühit yaratmış olur.

Əsaslandığı prinsiplərlə yanaşı inklüziv təhsil yanaşması bəzi xüsusiyyətləri də özündə cəmləyir. Belə ki, inklüziv təlim yanaşması əqli və fiziki imkanları əhatə edən müxtəlif tələblərin təmin edilməsi və müxtəlifliklərin nəzərə alınması üçün optimal

imkanların axtarışını təşviq edir. Bu yanaşma fərqli maraq və bacarıq səviyyələri olan təhsilalanların maraqlarına cavab verməklə yanaşı, təhsilverənlərin peşəkar inkişafına da təkan verir. Təlim metodlarının rəngarəngliyi şagirdlərin yaradıcı potensialını aşkara çıxarmağa və məsələləri həll etmə bacarığının müxtəlif yollarla stimullaşdırılmasına da imkan verir.

Bundan başqa, inklüziv təhsilə demokratik dəyərlər də xasdır. Belə ki, inklüziya bütün uşaqların məktəbə getmək, öz fikrini ifadə etmək, keyfiyyətli tədris prosesində iştirak edərək şəxsi, sosial və etnik xüsusiyyətlərindən asılı olmayaraq, müəyyən nəticələr əldə etmək hüquqlarının təmin edilməsini və sosial təcridə məruz qala bilən, həmçinin davamiyyəti pis olan şagirdlərə mənəvi dəstəyin göstərilməsini nəzərdə tutur.

İnklüziv təhsil tətbiq edilən təhsil müəssisələrində bütün təhsilalanlar, o cümlədən əlilliyi olan uşaqlar bərabərhüquqludur, təhsil prosesi hər bir uşaq üçün əlçatandır, onlara ünsiyyət üçün bərabər imkanlar yaradılıb, təlim prosesi səmərəli təşkil edilir, prosesə cəlb olunan pedaqoji işçilər müvafiq bacarıqlara yiyələnmişlər, proqram hər bir şagirdin tələbatını nəzərə alır, ailələr təhsil müəssisəsinin həyatında fəal iştirak edirlər. Beləliklə, inklüziv təhsili fiziki, psixi, intellektual və digər xüsusiyyətlərindən asılı olmayaraq, bütün şəxslərin öz həmyaşıdları ilə eyni təhsil müəssisələrində təhsil alması prosesi kimi xarakterizə etmək olar.

## Azərbaycanda əlilliyi olan şəxslərin təhsili sahəsində mövcud vəziyyət

Azərbaycan Respublikasının "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Qanununa əsasən əlilliyi olan şəxs dedikdə müxtəlif maneələrlə qarşılaşdığı zaman digər şəxslərlə bərabər səviyyədə cəmiyyət həyatında tam və səmərəli iştirakına mane olan sabit fiziki, psixi, əqli və ya hissiyyat pozuntuları olan şəxs, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaq nəzərdə tutulur. "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən sağlamlıq imkanı məhdud şəxs dedikdə xüsusi şərait yaradılmadan təhsil almasında çətinliklər yaranan fiziki çatışmazlığı, əqli və (və ya) psixi ləngimələri olan şəxs nəzərdə tutulur. Sağlamlıq imkanları məhdud şəxslər xüsusi təhsilə cəlb olunma imkanlarına görə məhdudiyyətlərin (çatışmazlıqların) kateqoriyalarına əsasən təhsilə cəlb olunurlar. Xüsusi təhsil növünün və xüsusi təhsil müəssisəsinin növünün müəyyənləşdirilməsi Pedaqoji-tibbi-psixoloji komissiyanın (PTPK) qərarına əsasən həyata keçirilir. PTPK həmçinin xüsusi təhsilə cəlb olunma müddətini və müvafiq təhsil proqramını müəyyənləşdirir, şagirdlərin fərdi tədris planına dair tövsiyələr verir.

"Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Qanuna əsasən xüsusi təhsil proqramları əsasında xüsusi təhsil alma formaları aşağıdakılardır:

1) xüsusi təhsil müəssisələrində təhsil

2) evdə təhsil

3) ümumi təyinatlı təhsil müəssisələrində xüsusi təhsil

Təhsil Nazirliyinin rəsmi statistikasına əsasən hal-hazırda

ölkə ərazisində 65482 nəfər sağlamlıq imkanları məhdud uşaq vardır. Onlardan 9355 nəfəri evdə, 2558 nəfəri uşaq xüsusi məktəblərində, 2725 nəfəri isə xüsusi internat məktəblərində təhsilə cəlb olunmuşlar.

Hazırda mövcud olan internat tipli xüsusi təhsil müəssisələrinin növləri aşağıdakılardır:

- Lal-kar uşaqlar üçün;
- Zəif eşidən və sonradan karlaşmış uşaqlar üçün;
- Kor və zəif görən uşaqlar üçün;
- Polimelit və beyin iflici qalığı olan uşaqlar üçün;
- Nitq inkişafında ağır qüsurları olan və ya ağır formada kəkələyən uşaqlar üçün;
- Əqli geriliyi (yüngül və orta səviyyə) olan uşaqlar üçün

Bu internat tipli xüsusi təhsil müəssisələri yalnız Bakı şəhərində fəaliyyət göstərirlər. Regionlarda xüsusi təhsilin təşkil edilməməsi səbəbindən onlar Bakı şəhərində fəaliyyət göstərən xüsusi internat məktəblərində təhsilə cəlb olunaraq orada yaşayırlar. Eyni zamanda, valideyn qayğısından məhrum olan və dövlət uşaq müəssisələrində yaşayan uşaqların 37,7 faizi xüsusi təhsilə olan ehtiyacları üzündən xüsusi internat məktəblərinə yerləşdiriliblər.

Evdə fərdi qaydada təhsil alan şagirdlər müvafiq təhsil müəssisəsinə xəstəxanaların, poliklinikaların, dispanserlərin təqdim etdiyi sənədlər əsasında rayon, şəhər PTPK-nın qərarı ilə qəbul olunurlar.

Sağlamlıq imkanları məhdud şəxslərin PTPK-nın qərarına əsasən xüsusi şərait yaradılan ümumi təyinatlı təhsil müəssisələrində təhsil almaq hüququ vardır. İnteqrasiya təlimli ümumtəhsil müəssisələrində sağlamlıq imkanları məhdud uşaqlar üçün ayrıca sinif otaqları yaradılır. Belə müəssisələrdə sağlamlıq imkanları məhdud şəxslərin sayı ümumi kontingentin 20 faizindən çox olmamaqla, hər sinifdə 8-10 nəfər həcmində olur. Kar, kor, görmə

qabiliyyəti 40 faizdən az olan uşaqların bu müəssisələrdə təhsili mümkün deyil.

Eyni zamanda bu müəssisələrdə sağlamlıq imkanları məhdud uşaqlara loqopedik xidmətlər də göstərilməsi nəzərdə tutulmuşdur. Hazırda Bakı, Sumqayıt, Gəncə, Lənkəran, Göyçay, Siyəzən, Tovuz, Şəki və Bərdə şəhərlərində bu cür müəssisələr fəaliyyət göstərir.

Sağlamlıq imkanları məhdud şəxslərin inklüziv təhsilə cəlb olunması istiqamətində indiyədək müxtəlif təşəbbüslər olmuşdur. Belə ki, xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili ilə əlaqədar 2005-2009-cu illər üçün inkişaf proqramı çərçivəsində inklüziv təhsilin təşkili ilə bağlı 3 pilot layihə icra olunmuşdur. Layihələrin icrası olaraq 15 ümumi təhsil müəssisəsində, 13 məktəbəqədər təhsil müəssisəsində 268 nəfər əlilliyi olan uşaq inklüziv təhsilə cəlb olunmuşdur.

2015-2016-cı tədris ilindən sağlamlıq imkanları məhdud olan uşaqların ümumi təhsil müəssisəsində digər uşaqlarla birgə təhsilə cəlb olunması məqsədilə Azərbaycan Respublikasında "İbtidai təhsil səviyyəsi üzrə inklüziv təhsilin tətbiqi" layihəsinin icrasına başlanılmışdır. "İbtidai təhsil səviyyəsi üzrə inklüziv təhsilin tətbiqi" layihəsi çərçivəsində pilot məktəblərin müəyyən edilməsi barədə Azərbaycan Respublikası Təhsil Nazirinin 3 iyun 2016-ci il tarixli əmri ilə Nərimanov rayonu 202 nömrəli tam orta məktəb, Nizami rayonu 220 nömrəli məktəb-lisey, Xətai rayonu 138 nömrəli orta məktəb, Sabunçu rayonu 252 nömrəli məktəb-lisey layihə üzrə pilot müəssisələr kimi müəyyən edilmişdir. Bu məktəblərdə inklüziv siniflərdə təxminən 40 sağlamlıq imkanı məhdud şagird hazırda təhsil almaqdadır.

## Azərbaycanda inklüziv təhsil sahəsində qanunvericilik

İnklüziv təhsil yanaşması Azərbaycan təhsil sistemi üçün yeni olsa da bu sahədə artıq müəyyən qanunvericilik bazası formalaşmışdır.

Hüququn əsas mənbəyi olan Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinə görə, sağlamlıq imkanları məhdud olanlar, onların məhdud imkanlarına görə həyata keçirilməsi çətinləşən hüquq və vəzifələrdən başqa, bu Konstitusiyada təsbit olunmuş bütün hüquqlardan istifadə edir və vəzifələri daşıyırlar. Konstitusiyanın "Təhsil hüququ" adlanan 42-ci maddəsinə görə, hər bir vətəndaşın təhsil almaq hüququ vardır. Dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir. Təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir. Maddi vəziyyətdən asılı olmayaraq istedadlı şəxslərin təhsili davam etdirməsinə dövlət zəmanət verir. Dövlət minimum təhsil standartlarını müəyyən edir.

Azərbaycan Respublikası əlilliyi olan şəxslərin təhsil hüququnu tanıyan BMT-nin bir sıra aktlarına qoşulmuşdur. BMT-nin bəyan etdiyi əsas insan hüquqları arasında təhsil hüquqları bir sıra aktlarda təsbit edilmişdir. Ümumdünya insan hüquqları bəyannaməsində hər bir insanın təhsil alması göstərilmişdir.

İnklüziv təhsillə bağlı qəbul edilən ilk rəsmi sənəd 1994-cü ildə 92 dövlətin iştirakı ilə imzalanmış Salamanka Bəyannaməsidir. Bəyannamədə təsbit edilmişdir ki, məktəblər bütün uşaqları, fiziki, intellektual, sosial, emosional, dil və digər xüsusiyyətlərinə baxmayaraq qəbul etməlidir. Bu, əqli və fiziki ləngiməsi olan, xüsusi istedada malik olan, kimsəsiz, işləyən uşaqlara, etnik və mədəni azlıqlara da aiddir."

Azərbaycan Respublikası BMT-nin “Uşaq hüquqlarına dair” Konvensiyasına qoşulduğuna görə əlilliyi olan uşaqların hüquqlarını daha yaxşı müdafiə etmək üçün qanunvericilikdə müvafiq dəyişikliklər etməyi öhdəsinə götürmüşdür. Azərbaycan 1992-ci ildə bu beynəlxalq sənədi imzalamış və təsdiq etmişdir.

Azərbaycan Respublikasının 2008-ci ildə imzaladığı və 2009-cu ildə ratifikasiya etdiyi BMT-nin “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Konvensiyası (ƏŞHK) əlilliyi olan şəxslərin təhsil hüquqlarının bir çox tərəflərini əhatə edir və inklüziv təhsilin hər kəs üçün ən yaxşı təhsil mühiti olduğunu təşviq edir. Həmin Konvensiyanın 24-cü maddəsinə əsasən, iştirakçı dövlətlər əlilliyi olan şəxslərin təhsil hüququnu tanıyırlar.

Ayrı-seçkiliyə yol vermədən bu hüququn həyata keçirilməsi üçün iştirakçı dövlətlər bütün pillələrdə inklüziv təhsil sistemini və əlilliyi olan şəxslərin fasiləsiz təhsil almaq imkanını təmin etməlidirlər. İştirakçı dövlətlər əlilliyi olan şəxslərin əlillik əlamətinə görə təhsildən kənarlaşdırılmamasını, onların digər insanlarla eyni əsaslarla inklüziv, keyfiyyətli və pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin etməlidirlər. Konvensiyaya əsasən maneələrin aradan qaldırılması, stereotiplərin ləğv edilməsi və inklüziv təhsilin hər kəs üçün ən yaxşı təhsil mühiti olması təsbit olunur. Məhz belə yanaşma əlillikdən qorxmayan, onu asanlıqla qəbul edən inklüziv cəmiyyətin yaradılmasına köməklik edir. Əlilliyi olan uşaqlar digər həmyaşıdları ilə birlikdə böyüdükdə və dərs prosesində birgə iştirak etdikdə, onlar bir-birinə qarşı daha böyük anlaşma və hörmət hissini özlərində inkişaf etdirirlər.

“Əlilliyi olan insanların hüquqlarının və cəmiyyətdə tam iştirakının dəstəklənməsi: 2006-2015-ci illər ərzində əlilliyi olan şəxslərin həyat səviyyəsinin yaxşılaşdırılması üzrə Avropa Şurasının Tədbirlər Planı”nda qeyd edilir ki, əlilliyi olan uşaqların

öz ailələrində böyüməsi, həmçinin icma həyatına inteqrasiya etməsi üçün onların və ailələrinin ehtiyacları əlaqədar qurumlar tərəfindən ətraflı şəkildə qiymətləndirilməlidir. Həmin Planın 4-cü fəaliyyət istiqamətini əlilliyi olan şəxslərin təhsil almaq imkanları təşkil edir.

BMT-nin müvafiq sənədləri əsasında Azərbaycan Respublikasının "Uşaq hüquqları haqqında" qanunu tərtib edilmişdir. Bu qanun bütün uşaqların hüquqlarının bərabərliyini tanımaqla, əlilliyi olan uşaqlara qarşı ayrı-seçkiliyin qarşısının alınması üçün bu qanunda nəzərdə tutulmuş hüquq və azadlıqların digər normativ sənədlərin müddəaları ilə məhdudlaşdırılmasına icazə vermir.

"Təhsil haqqında" Azərbaycan Respublikasının 19 iyun 2009-cu il tarixli Qanununun 5-ci maddəsinə əsasən, dövlət cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, etnik mənsubiyyətindən, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq

## ƏŞHK-nın əsas prinsipləri

| | |
|---|---|
| 1 | Ləyaqətə, şəxsi seçim etmək azadlığı da daxil olmaqla fərdi müstəqilliyə hörmət |
| 2 | Ayrı-seçkiliyin olmaması |
| 3 | Cəmiyyətdə tam və effektiv iştirak və inklüziya |
| 4 | Əlilliyi olan şəxslərin insan müxtəlifliyinin və humanizmin bir hissəsi kimi qəbulu və müxtəlifliyə hörmət edilməsi |
| 5 | Fürsətlərin bərabərliyi |
| 6 | Müyəssərlik |
| 7 | Qadın və kişilər arasında bərabərlik |
| 8 | Əlilliyi olan uşaqların təkamül edən bacarıqlarına hörmət və əlilliyi olan uşaqların öz kimliklərinə sadiq qalma hüququna hörmət edilməsi |

imkanlarından asılı olmayaraq, hər bir vətəndaşa təhsil almaq imkanının yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir, təhsilin hər hansı pilləsindən, səviyyəsindən və formasından məhrum edilməsinə yol vermir.

Azərbaycanda da sağlamlıq imkanları məhdud uşaqların təhsilinin təşkilinin qanunvericilik əsasını "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının 5 iyun 2001-ci il tarixli qanunu tutur. Qanunda xüsusi təhsil sahəsində dövlətin vəzifələri müəyyənləşdirilmiş, sağlamlıq imkanları məhdud şəxslərin, onların valideynlərinin və ya digər qanuni nümayəndələrinin xüsusi təhsil sahəsində hüquq və vəzifələri öz əksini tapmış, xüsusi təhsilin təşkili və idarəolunması təsbit olunmuşdur.

“Xüsusi təhsil haqqında” qanuna əsasən sağlamlıq imkanları məhdud uşaqların xüsusi təhsil müəssisələrində, evdə təhsili və inteqrativ sinif otaqlarında təhsili nəzərdə tutulmuşdur. Qanuna əsasən qeyd olunan təhsil müəssisələrində təhsil almaq hüququ psixoloji-tibbi-pedaqoji komissiyanın qərarına əsasən təsbit olunur.

Sağlamlıq imkanları məhdud uşaqların ümumi təhsil müəssisələrində təhsil almalarını təmin etmək üçün Azərbaycan Respublikası Nazirlər Kabineti 29 may 2002-ci il tarixli 87 nömrəli qərarı ilə "İnteqrasiya təlimli təhsil müəssisələrində təhsilin təşkili



Qaydaları"nı təsdiq etmişdir. Həmin qaydalara əsasən, inteqrasiyalı təhsil sağlamlıq imkanları məhdud uşaqların ümumi təhsil müəssisələrində xüsusi təhsil proqramları ilə xüsusi siniflərdə təhsilini nəzərdə tutur. Qərarı bu

uşaqların ümumtəhsil məktəblərinə inteqrasiyası istiqamətində atılmış ilk addım kimi dəyərləndirmək olar.

"Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli Qanununun 4-cü fəsli (18-20-ci maddələr) əlilliyi olan şəxslərin təhsili məsələsinə həsr edilmişdir. Yeni qəbul edilmiş bu qanun təhsilin bütün pillələrinin inklüzivlik prinsipi əsasında qurulması məsələlərinə toxunur. Belə ki, qanunun 18-ci maddəsinə görə, sağlamlıq imkanları məhdud məktəbəqədər yaşlı uşaqların təlim və tərbiyəsi təsdiq edilmiş fərdi reabilitasiya proqramına uyğun olaraq, dövlət, bələdiyyə və özəl xüsusi məktəbəqədər təhsil müəssisələrində və ya inklüzivlik prinsiplərinə əsasən digər məktəbəqədər təhsil müəssisələrində həyata keçirilir.

Qanunun 20-ci maddəsinə əsasən əlilliyi olan şəxslərin təhsili və peşə hazırlığı xüsusi və ya inklüziv təhsil formasında, xüsusi təhsil proqramları və fərdi təhsil planı əsasında həyata keçirilir. Xüsusi şərait yaradılmadan əlilliyi olan şəxslərin təhsil almasında çətinliklər yaranan hallarda onların təhsili evdə təhsil, fərdi təhsil və distant təhsil formasında həyata keçirilir. Qanun "Xüsusi təhsil haqqında" qanunda sağlamlıq imkanları məhdud şəxslər üçün nəzərdə tutulan bütün təhsil növlərinə istinad verməklə bərabər, sağlamlıq imkanları məhdud uşaqların inklüziv formada da təhsil almaları imkanını vurğulayır.

Qanunda eyni zamanda əlilliyi olan şəxslərin təhsili üçün tələb olunan xidmətlərin göstərilməsinə dövlət təminatı verilir. Belə ki, əlilliyi olan şəxslərin təhsili üçün zəruri olan tədris vəsaiti və texniki ləvazimatla, o cümlədən fərdi tələbatı nəzərə alan vasitələrin dövlət hesabına təmin olunması qanunla şərtləndirilir. Eyni zamanda qanun əlilliyi olan şəxslərin təhsilinin təmin olunması üçün pedaqoji kadrların, psixoloqların, sosial işçilərin və digər mütəxəssislərin hazırlanması sahəsində dövlətin öhdəliyini müəyyən edir.

"Heç kəsi kənarda qoymamaq" prinsipini rəhbər tutaraq,

yoxsulluğun bütün formalarına son qoymaq və bərabərsizliklərə qarşı tədbirlər görmək məqsədi daşıyan BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərindən (DİM) biri "hər kəs üçün inklüziv və keyfiyyətli təhsili təmin etmək və ömür boyu təhsili təşviq etmək"dir. DİM-in ən vacib hədəflərindən biri 2030-cu ilədək əlilliyi olan insanlar da daxil olmaqla əhalinin həssas qrupları üçün bütün səviyyələrdə təhsilə və peşə təliminə bərabər çıxış imkanını təmin etmək, eləcə də uşaq, əlillik və gender məsələlərinə həssas yanaşan və hamı üçün təhlükəsiz, zorakılığa yol verilməyən, inklüziv və effektiv təlim mühitini təmin edən təhsil müəssisələrini qurmaq və onları təkmilləşdirməkdir. Azərbaycanda da DİM-in məqsədləri istiqamətində fəaliyyət aparılır və əsas məqsəd təhsil də daxil olmaqla bütün məqsədlər istiqamətində əhəmiyyətli irəliləyişlərə nail olmaqdır.

## İnklüziv təhsil sahəsində dövlət siyasəti

Əlilliyi olan uşaqların təhsili və inkişafı məsələlərinə dövlətin strateji yanaşması 2005-ci ildən bəri bir sıra konsepsiya sənədləri, dövlət proqram və strategiyalarında öz əksini tapmışdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 fevral 2005-ci il tarixli qərarı ilə təsdiq olunmuş, "Azərbaycan Respublikasında əlilliyi olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili ilə əlaqədar İnkişaf Proqramında (2005-2009-cu illər)" əlilliyi olan uşaqların təhsil hüququnun yerinə yetirilməsi, belə kateqoriyadan olan uşaqların hamısı üçün bərabər təhsil alma şəraitinin yaradılması, inteqrasiyalı (inklüziv) təlimə keçidin reallaşdırılması, təhsil müəssisələrində bütün uşaqların təhsili üçün bərabər imkanların yaradılması, dövlət himayəsində olan uşaqların sosial müdafiəsinin gücləndirilməsi, müvafiq klassifikasiyaya uyğun olaraq bütün kateqoriyadan olan əlilliyi olan uşaqların ölkə üzrə qeydiyyatının aparılması və təhsilə cəlb edilməsi, xüsusi təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının müasir standartlara uyğunlaşdırılması və digər məsələlər öz əksini tapmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyasında xüsusi qayğıya ehtiyacı olan, sağlamlıq imkanları məhdud uşaqlar üçün müxtəlif inkişafetdirici, korreksiyaedici və inklüziv təhsil proqramlarının tətbiq edilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli 13 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə" dövlət strategiyasının

ikinci strateji istiqamətində xüsusi qayğıya ehtiyacı olanlar üçün inklüziv təlim metodologiyasının yaradılması nəzərdə tutulur.

Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 yanvar tarixli 995 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı"nın 1.4-cü bəndində sağlamlıq imkanları məhdud şəxslərin inkişafı və inklüziv təhsili üzrə dövlət proqramının hazırlanması, təsdiqi və həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 fevral 2018-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Sağlamlıq imkanları məhdud olan məktəbəqədər yaşlı uşaqların təhsilinin dövlət standartları"nda xüsusi məktəbəqədər təhsilin məzmunu, idarə olunması, infrastrukturu, maddi-texniki və tədris bazası, təhsilverənlərin keyfiyyət göstəriciləri, təhsilalanların bilik, bacarıq və vərdişlərinin ilkin səviyyəsi müəyyən edilmişdir.

## “2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə” Dövlət Proqramı

Məlumdur ki, sosial proqramlar dövlət sosial sifarişi əsasında həyata keçirilən təhsil, elm, ətraf mühit, iqtisadi, sosial, səhiyyə, idman, turizm, mədəniyyət, incəsənət, hüquq və azadlıqlar, gender bərabərliyi, davamlı inkişaf, yerli özünüidarəetmə, icma səfərbərliyi və qanunla qadağan olunmayan digər sahələr üzrə həyata keçirilən təşkilati, texniki, iqtisadi və sosial tədbirlərin (fəaliyyətlərin) məcmusu kimi çıxış edir.

**Sosial proqramların məqsədlərini aşağıdakı kimi təsnifləşdirmək olar:**

✓ehtiyacı olan sosial qrupların sosial tələbatının təmin olunması;

✓dövlət və ya yerli özünüidarə orqanları tərəfindən əhatə olunmayan və ya tam əhatə olunmayan sosial əhəmiyyətli problemlərin həlli üçün QHT sektorundan əlavə insan və təşkilati resursların cəlb olunması;

✓sosial problemlərin həllinə yönələn ictimai vəsaitlərin səmərəli istifadəsi məqsədi ilə qarşılıqlı nəzarət sisteminin təmin olunması;

✓sosial problemlərin həllində ünvanlılığın təmin olunması;

✓ölkənin vətəndaş cəmiyyəti qurumlarının və vətəndaşların dövlətin sosial siyasətinin həyata keçirilməsində bilavasitə iştirakının təmin olunması;

✓sosial xidmətlər göstərilməsi sahəsində ixtisaslaşmış QHT təsisatlarının formalaşdırılması və inkişafı;

✓qanuna zidd olmayan digər məqsədlərin həyata keçirilməsi.

Son dövrlərdə qəbul edilmiş sosial proqramlar içərsində Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 dekabr tarixli S ərəncamı ilə təsdiq edilmiş "2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə" Dövlət Proqramı xüsusi yer tutmaqla mühüm və aktual olan sosial problemə həsr edilmişdir.

Dövlət Proqramının məqsədi sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etməkdən və onların təhsili üçün maneəsiz mühit yaratmaqdan ibarətdir.

Dövlət Proqramının həyata keçirilməsi nəticəsində gözlənilən nəticələr aşağıdakı kimi müəyyən edilmişdir:

- təhsilin bütün pillələri üzrə təhsil müəssisələrinin infrastrukturunun sağlamlıq imkanları məhdud şəxslərin ehtiyaclarına uyğunlaşdırılması təmin ediləcəkdir;
- informasiya texnologiyalarının tətbiqi ilə sağlamlıq imkanları məhdud şəxslər üçün informasiya əldə etmək imkanları genişləndiriləcəkdir;
- məktəbəqədər, ümumi və ilk peşə-ixtisas təhsili üzrə təhsil proqramlarında sağlamlıq imkanları məhdud şəxsləri təhsildən istifadə imkanları ilə digər şəxslərlə bərabər səviyyədə təmin edən dəyişikliklər ediləcəkdir;
- inklüziv (inteqrativ) təhsilə cəlb olunan sağlamlıq imkanları məhdud şəxslər üzrə məlumat bazası yaradılacaqdır;
- sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlb olunması imkanlarının qiymətləndirilməsində yeni qaydalar tətbiq olunacaqdır;
- sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüquqları barədə əhalinin məlumatlılıq səviyyəsi artacaqdır.

Dövlər Proqramın həyata keçirilməsi ölkədə xüsusi təhsilə ehtiyacı olan şəxslərin təhsilinin təşkili ilə bağlı bütün problemlərin həllinə imkan yaratmaqla həmin şəxslər üçün təhsil müəssisələrinin əlçatan olmasını nəzərdə tutan mühüm infrastuktur dəyişiklikləri təmin ediləcəkdir.

**Dövlət Proqramının həyata keçirilməsi üzrə tədbirlərin istiqamətləri 5 qrupa bölünür.**

**1. Normativ hüquqi bazanın təkmilləşdirilməsi**

- sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlb olunması üçün inkişaf xüsusiyyətlərinin qiymətləndirilməsi meyarlarının, vasitələrin və metodların hazırlanması;
- təhsil müəssisələrində inklüziv təhsilin tətbiqi məqsədi ilə “Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında” Azərbaycan Respublikasının Qanununda, təhsil müəssisələrinin nümunəvi nizamnamələrində, ştatlarında dəyişikliklər edilməsi ilə bağlı təkliflər hazırlanması;
- Psixoloji-tibbi-pedaqoji komissiyanın yeni əsasnaməsinin hazırlanması;
- bütün təhsil pillələri və əlavə təhsil üzrə standartlarda müvafiq dəyişikliklər edilməsi.

**2. İnklüziv təhsilin təşkili ilə bağlı maddi-texniki bazanın möhkəmləndirilməsi**

- sağlamlıq imkanları məhdud şəxslər üçün təhsil müəssisələrində onların maneəsiz hərəkətini təmin etmək üçün pandusların, xüsusi liftlərin quraşdırılması, təhsil müəssisələrinin məlumatın vizual, səs və daktil formada alınmasını təmin edən vasitələrlə, nəqliyyat vasitələri, reabilitasiya avadanlıqları ilə və digər yardımçı vəsait və texnologiyalarla, didaktik materiallarla təchiz edilməsi

- dövlət büdcəsində nəzərdə tutulmuş vəsait dairəsində sağlamlıq imkanları məhdud şəxslərə uyğunlaşdırılmış öyrədici materialların, valideynlər və müəllimlər üçün metodiki vəsaitlərin hazırlanması və nəşr edilməsi;

- inklüziv təhsildə beynəlxalq təcrübədə istifadə olunan öyrədici elektron proqramların tətbiq edilməsi.

**3. İnklüziv təhsilin təşkil edilməsi ilə bağlı kadr hazırlığı və təşkilati tədbirlər**

- pedaqoji kadrların hazırlanması və əlavə təhsili üzrə tədris proqramlarına xüsusi təhsil üzrə yeni modulların daxil edilməsi;

- təhsil müəssisələrində təlim prosesinin inklüziv təhsilin tələblərinə uyğun olaraq qurulması;

- sağlamlıq imkanları məhdud şəxslərin peşə və əmək vərdişlərinə yiyələnməsi üçün müxtəlif peşələr üzrə xüsusi məktəblərdə, inteqrasiyalı və xüsusi internat məktəblərində, ilk peşə-ixtisas təhsili müəssisələrində tədris emalatxanalarının yaradılması;

- ümumi təhsili həyata keçirən təhsil müəssisələrində ümumtəhsil fənləri üzrə təhsilalanların biliyinin yekun qiymətləndirilməsi (attestasiyası) məqsədi ilə keçirilən buraxılış və monitorinq imtahanlarında, ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarında sağlamlıq imkanları məhdud şəxslərin iştirakının təmin edilməsi üçün zəruri tədbirlərin görülməsi.

**4. Monitorinqin aparılması ilə bağlı tədbirlər**

- təhsil müəssisələrində inklüziv təhsilin keyfiyyət meyarlarının və monitorinq mexanizminin hazırlanması və tətbiq edilməsi;

- inklüziv təhsilə cəlb olunmuş sağlamlıq imkanları məhdud şəxslər üzrə məlumat bazasının yaradılması;

**5.Maarifləndirmə**

- sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlb olunması ilə bağlı əhali arasında məlumatlandırma işinin təşkil edilməsi;

- sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlb olunması və sosial inteqrasiyası ilə bağlı sosial çarxların hazırlanması, kütləvi informasiya vasitələrində nümayişinin təşkil edilməsi.

## Beynəlxalq təcrübə

Ölkədə inklüziv təhsilin beynəlxalq standartlara uyğunlaşdırılması məqsədi ilə aparılan islahatların fonunda inklüziv təhsilin inkişafı istiqamətində bir sıra uğurlar əldə etmiş keçmiş sosialist ölkələrinin təcrübələrinə nəzər yetirmək müvafiq olardı.

Belə ki, cənub şərqi Avropa ölkələrinin bu sahədə təcrübəsi xüsusilə nümunəvidir. Avropa İttifaqına inteqrasiyadan sonra bu ölkələrin təhsil siyasətində və qanunlarında inklüzivlik prinsipi qabarıq nəzərə çarpmağa başladı. Məsələn, Xorvatiyada 2015-ci ildə qəbul edilmiş "İnkişafında problemlər olan uşaqların ibtidai və orta təhsili haqqında" Qanun inklüzivlik prinsipinə və bu uşaqlara fərdi yanaşma prinsipinə əsaslanır. Qanunda bütün şagirdlərin fərqli olması faktı öz təsbitini tapır və belə bir tələb irəli sürülür ki, təhsil sitemi və təhsil müəssisələri şagidlərin ehtiyacları əsasında uyğunlaşdırılmalıdır. Qanunun əsas məqsədi sağlamlıq imkanları məhdud olan uşaqların ümümtəhsil məktəblərinə cəlb edilməsi, beləliklə onların həyat keyfiyyətini (sosiallaşmaq, müstəqil yaşamaq və işləmək bacarıqlarının artırılması) yüksəltmək və uyğunlaşdırılmış təhsildən sonra onları cəmiyyətə inteqrasiya etməkdir. Həmçinin, qanunda qeyd olunur ki, sağlamlıq imkanları məhdud olan uşaqlar təhsil müddətində müvafiq təlim proqramı və peşəkar dəstəklə, eləcə də uyğunlaşdırılmış təlim mühiti, pedaqoji və didaktik materiallarla təmin edilməlidirlər.

Slovakiya inklüziv təhsillə bağlı olan bütün beynəlxalq sənədləri imzalayıb. Slovakiyanın 2008-ci ildə təsdiqlənmiş təhsil haqqında Qanununda inklüziv təhsil ifadəsi birbaşa işlədilməsə də bu qanunda təhsilə bərabər çıxış imkanlarının təmin edilməsi və fərdi təhsil ehtiyaclarının nəzərə alınmasının vacibliyi öz əksini

tapmışdır. Qanun eyni zamanda ayrı-seçkilik və təcridetmənin bütün formalarını qadağan edir.

Sloveniyanın da təhsilə dair qanunvericilik bazası inklüziv təhsilin lehinə işləməkdədir. İnklüziv təhsil üzrə hazırlanmış milli hesabatda qeyd edilir ki, keçən əsrdə xüsusi təhsil ənənəsi geniş yayılsa da son 20 ildə aparılan təhsil islahatları və qanunvericiliyin yenilənməsi ilə inklüziv təhsilin nüfuz dairəsi genişlənməkdədir. 2000-ci ildə təsdiqlənmiş Təhsil Qanununda qeyd edilir ki, təhsilin bütün pillələrində sağlamlıq imkanları məhdud təhsilalanların ehtiyaclarını təmin edən şərait yaradılmalıdır.

Qabaqcıl inklüziv təhsil baxımından nümunəvi olan postsovet ölkələrindən biri də Litvadır. Belə ki, inklüziv təhsil konsepsiyası təhsilə dair bir sıra ciddi sənədlərdə (Təhsil Qanunu, "Milli Təhsil Strategiyası 2013–2022, Müəllim səriştəsi profili, Müəllim hazırlığı standartları, "Yaxşı məktəb" konsepsiyası və s.) öz əksini tapmışdır. Avropa Birliyinə təqdim edilən milli hesabatda qeyd edilir ki, Litvada bütün ümumtəhsil məktəbləri inklüziv məktəblər hesab edilə bilər, çünki bütün məktəblər müxtəlif təhsil ehtiyacları olan uşaqların təhsil ehtiyaclarına cavab verə bilir.

Qazaxıstan da inklüziv təhsil sahəsində apardığı islahatlarla seçilir. İnklüziv təhsil təcrübəsinin geniş yayılması ilə yanaşı Qazaxıstanın Təhsil haqqında Qanunu, eləcə də Qazaxıstanda "Təhsil və elmin inkişafı üzrə Dövlət Proqramı"nda inklüziv təhsil haqqında müddəalar öz əksini tapmışdır.

İnklüziv təhsil sahəsində uğurlu təcrübələri ilə seçilən nümunəvi ölkələr sırasında Serbiyanın adı xüsusilə qeyd olunmalıdır. Serbiya BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasıyanı ratifikasiya etmiş və Salamanka Bəyannaməsini imzalamışdır. Bununla yanaşı Serbiya Hamı üçün Təhsil təşəbbüsünə və Qaraçı İnklüziyası Onilliyi təşəbbüsünə də qoşulmuşdur.

Serbiyada 2000-ci illərin əvvəllərindən başlayaraq təhsildə inklüzivliyi artırmaq məqsədilə Yoxsulluğun azaldılması üzrə Strategiya, Serbiyada əlilliyi olan şəxslərin mövqeyinin möhkəmləndirilməsi üzrə Strategiya, Serbiyada təhsilin inkişafı üzrə Strategiya  və s. sənədlər qəbul edilmişdir.

Serbiyada inklüziv təhsilin tətbiqinə aşağıdakı siyasi sənədlər də təsir göstərmişdir:

Serbiyada Qaraçı təhsilinin inkişafı üzrə Ümumi Fəaliyyət Planı (2004);

– Uşaqlar üçün Milli Fəaliyyət Planı (2004)
– Minilliyin İnkişaf Məqsədləri (2005);
– UNESCO üçün Milli Hesabat (2008);
– Təhsilin İnkişaf Konsepsiyası: Bərabərlik, Keyfiyyət və Səmərəlilik (2008).

2009-cü ildə qəbul edilmiş Təhsil sisteminin əsasları haqqında Qanuna əsasən Serbiya Respublikasında inklüziv təhsilin genişləndirilməsi nəzərdə tutulur. Bu günə qədər həmin qanuna dəyişikliklər edilmiş, 2017-ci ildə isə qanunun yeni versiyası parlament tərəfindən qəbul olunmuşdur. Qanunun əsas prinsipləri bunlardır:

– Ayrı-seçkiliyə yol vermədən bərabər təhsil imkanları yaratmaq;
– Fərdi təhsil ehtiyacları əsasında uyğunlaşdırmalar aparmaq;
– İnsan və uşaq hüquqlarına, şəxsi ləyaqətə hörmət.

2015-ci ildə Serbiyanın Təhsil, Elm və Texnoloji İnkişaf Nazirliyinin təşəbbüsü ilə təhsil islahatlarına töhfə verməsi üçün Sosial inklüziya Qrupu (hazırda Azlıqların təhsili, sosial inklüziya, zorakılıq və ayrı-seçkiliyə qarşı mübarizə üzrə Qrupa inteqrasiya olunub) təsis edildi. Qrupun əsas məqsədi təhsilin bütün səviyyələrində inklüziv mədəniyyətin, siyasət və təcrübələrin

inkişafı vasitəsilə ümumilikdə təhsilin keyfiyyətinin davamlı olaraq yüksəldilməsindən ibarətdir.

Serbiyada əlilliyi olan şagirdlər bir qayda olaraq ümumtəhsil siniflərində təhsil alırlar. Əlilliyi olan uşaqların xüsusi məktəblərdə təhsili yalnız Sektorlararası Komitələrin rəyi və valideynlərin təsdiqi əsasında mümkündür. Lakin əksər hallarda ümumtəhsil məktəblərində təhsilə üstünlük verilməsi dəstəklənir. Sektorlararası Komitələr uşaqların və təhsilalanların əlavə təhsilə, tibbi və sosial dəstəyə olan ehtiyaclarının qiymətləndirilməsi məqsədilə bələdiyyə səviyyəsində yaradılan komitələrdir.

Qanunvericilik bazasında inklüziv təhsil istiqamətində sıçrayışlı dəyişikliklər əsasən inkişaf etməkdə olan keçmiş sosialist blokuna daxil olan Avropa ölkələrində, eləcə də bir çox Afrika və Asiya ölkələrində daha qabarıq müşahidə olunur. Bu onunla izah olunur ki, bu ölkələrin əksəriyyəti nisbətən yeni müstəqillik əldə etmiş ölkələrdir. Ötən dövr ərzində təhsil sistemində köklü və intensiv islahatlar aparan bu ölkələr təhsilin daha mütərəqqi və humanist ideyalara əsalanması prinsipini rəhbər tutublar. Bu səbəbdən həmin ölkələrin inklüziv təhsil sahəsi üzrə qanunvericilik və təcrübəsində baş verən dəyişiklikləri daha aydın izləmək mümkündür.

# İstifadə olunmuş ədəbiyyat siyahısı

1. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli, 1153-VQ nömrəli Qanunu

2. "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının 5 iyun 2001-ci il tarixli, 136-IIQ nömrəli Qanunu

3. "Təhsil haqqında" Azərbaycan Respublikasının 2009-cu il 19 iyun tarixli, 833-IIIQ nömrəli Qanunu

4. "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının 19 may 1998-ci il tarixli, 499-IQ nömrəli Qanunu

5. "Psixoloji-tibbi-pedaqoji komissiya barədə Əsasnamənin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 aprel 2002-ci il tarixli, 74 nömrəli Qərarı

6. "İnteqrasiya təlimli təhsil müəssisələrində təhsilin təşkili Qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 may 2002-ci il tarixli, 87 nömrəli Qərarı

7. "Sağlamlıq imkanları məhdud olan məktəbəqədər yaşlı uşaqların təhsilinin dövlət standartları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 fevral 2018-ci il tarixli, 62 nömrəli Qərarı

8. "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli, 800 nömrəli Fərmanı

9. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli, 13 nömrəli Sərəncamı

10. "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan

Respublikası Prezidentinin 14 dekbar 2017-ci il tarixli, 3498 nömrəli Sərəncamı

11. "Əlilliyi olan insanların hüquqlarının və cəmiyyətdə tam iştirakının dəstəklənməsi: 2006-2015-ci illər ərzində əlilliyi olan şəxslərin həyat səviyyəsinin yaxşılaşdırılması üzrə Avropa Şurasının Tədbirlər Planı", 5 aprel, 2016

12. "2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik", BMT, 25 September 2015

13. BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" 13 dekabr 2006-cı il tarixli Konvensiyası

14. Salamanka Bəyannaməsi, UNESCO, Salamanka, İspaniya, 7-10 iyun 1994

15. "Hamı üçün Təhsil", UNESCO, Tailand, 1990

16. "İnklüziv təhsil: təcrübə və qarşıda duran vəzifələr" V Beynəlxalq Elmi-praktiki konfransın məqalələr toplusu. Bakı:" Şərq-Qərb, 2011, 624 s.

17. Cavadova Leyla Bahadur. İnklüziv təhsilin bəzi psixoloji problemləri / XXI əsr – mülahizələr və düşüncələr. Gənc tədqiqatçıların respublika elmi-praktik konfransının matrialları (15 aprel 2011-ci il) Bakı, 2011, s. 235 (s. 232-236)

18. David M., What Really Works in Special and Inclusive Education: Using Evidence-Based Teaching Strategies, 2014

19. Effective Inclusive Schools: Designing Successful Schoolwide Programs, 2012

20. Bui, X. Quirk, C., Almazan, S., & Valenti, M. (2010). Inclusive education research and practice: Inclusion works. Hanover, MD: Coalition for Inclusive Education.

21. Alquraini, T., & Dianne Gut, D. (2012). Critical Components of Successful Inclusion of Students with Severe Disabilities: Literature Review. International Journal of Special Education, 27, 42-59.

https://www.european-agency.org/country-information

"Universal Poligraf" MMC tərəfindən nəşr olunmuşdur
Tel: (+994 50) 243 10 31
www.unipoligraf.az
Bakı 2018